# Biz tariximizin ən şərəfli anlarını yaşayırıq!

Hələ bir il qabaq, dəqiq desəm, keçən il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq diskussiya klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında nümayiş etdirdiyi qətiyyət dünya azərbaycanlılarının möhtəşəm məmnunluğu ilə qarşılanmışdı. Yadımdadır, o zaman dövlət başçımız həmin tədbirdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açaraq, diqqəti Ermənistanın işğalçılıq siyasətinin nəticələrinə yönəltdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən bəri yerinə yetirilmədiyini vurğuladı. Dövlət başçımız Ermənistanın baş nazirinin “Qarabağ Ermənistanın hissəsidir və nöqtə” bəyanatının yalan olduğunu vurğulayaraq dedi: “Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

Ermənilərin təbliğat maşınını qırmaq və bütün dünyada onları ifşa etmək, təcavüzkar ölkə olduqlarını konkret faktlarla sübut etmək asan məsələ deyildi. Amma cənab Prezidentimiz bunu etdi. Doğrudur, bu 30 ildə sülhsevər Azərbaycan xalqı, eyni zamanda, danışıqlara inanıb, beynəlxalq birliyə etibar edib. Təəssüf ki, xalqımızın etibarından sui-istifadə olunub. BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən qeyd-şərtsiz geri çəkilmələrini özündə ehtiva edən 4 qətnaməsi 27 ildir ki, kağız üzərində qalıb. Ermənistan müxtəlif təxribatlar vasitəsilə danışıqlar prosesini faktiki olaraq pozub. Bunlar azmış kimi onlar daha da azğınlaşaraq dinc əhalini atəşə tutur, kənd və qəsəbələri dağıdırdılar. Lakin hər dəfə şanlı ordumuz tərəfindən geri otuzdurulan düşmənə layiqli cavab verilirdi. Əslində hər dəfə, necə deyərlər, “burnu sındırılan” işğalçı erməni ordusu bütün bunlardan nəticə çıxarmalı və başa düşməli idi ki, Azərbaycan ordusu çox güclüdür və bəd əməllərini davam etsələr, layiqli cavablarını alacaqlar. Elə 2016-cı ilin aprel döyüşlərinin nəticələri ciddi bir xəbərdarlıq idi.

Azərbaycan Ordusu döyüş meydanında nəyə qadir olduğunu Tovuz döyüşlərində də bir daha nümayiş etdirdi. Ermənistanın siyasi-hərbi rəhbərliyi bir daha dərk etdi ki, respublikamızın qarşısında kifayət qədər zəif və cılızdırlar. Ordumuzun bu zəfəri artan hərbi gücümüzün Aprel döyüşlərindən sonra növbəti təsdiqi oldu.

Tovuz döyüşlərindən sonra beynəlxalq ictimaiyyətdən gələn reaksiyalar isə bir çox mətləblərə yeni işıq saldı ki, bunlardan biri də Azərbaycanın müstəqil siyasət yürüdən dövlət olmasıdır. Bu siyasətin nəticəsi idi ki, ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar respublikamızın ədalətli mövqeyini birmənalı şəkildə dəstəkləyən qətiyyətli bəyanatlar verdilər.



## Xalqımız o günü səbirsizliklə gözləyir

### *Sonuncu erməni əsgərinin torpağımızdan çıxdığı günü*

***Cənab Prezidentimizin, Ali Baş Komandanımızın rəhbərliyi altında son günlər əldə etdiyimiz qələbə xəbərləri, şəhər və kəndlərimizin düşmən təcavüzündən azad edilməsi müjdələri gözlənilən idi və illərdir xalq belə bir günün intizarında idi. Çünki xalq öz Prezidentinə inanırdı və tam əmin idi ki, məqam yetişən kimi qələbəmiz təmin olunacaq və torpaqlarımız işğalçılardan təmizlənəcək.***

BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosu Ermənistanın təxribatı ilə bağlı kommünike qəbul etdi. İslam Konfransı Təşkilatı, Türk Şurası Ermənistanın işğalçı siyasətini qətiyyətlə pislədilər. Erməni təəssübkeşliyinin güclü olduğu Qərb ölkələrindən Ermənistanı müdafiə edən hansısa fikir eşidilmədi. Ermənistanın təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da onu müdafiə edən heç bir bəyanat vermədi.

Bu, bir həqiqətdir ki, beynəlxalq səviyyədə əldə olunan hər bir uğurun kökündə Azərbaycanın yürütdüyü müstəqil siyasət, Prezident İlham Əliyevin müəyyən etdiyi hücum diplomatiyasının inamla həyata keçirilməsi dayanır. Bu siyasət sürətlə öz hədəflərinə doğru irəliləyir, ayrı-ayrı dövlətlərin, təşkilatların, dövlət və siyasi xadimlərin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə olan baxışlarını dəyişərək, onların baş verənlərə obyektiv münasibət bildirmələrinə səbəb olurdu. Nəticə etibarilə bütün bunlar torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində aparılan danışıqlarda Azərbaycanın siyasi və hüquqi baxımdan mövqelərini möhkəmləndirirdi.

Gəlin görək 5-10 il qabaq belə idimi? Yox, əlbəttə! Bu səddi hər dövlət başçısı keçə bilməzdi, amma cənab İlham Əliyev keçdi! Özünün qətiyyəti, prinsipiallığı, nüfuzu, haqlı olması, xalqına, ordusuna inanması və arxalanması ilə. Bu gün ölkədə xalq-ordu birliyi ən yüksək səviyyədədir. Bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşı davam etdirsinlər. Bu eyni zamanda, Azərbaycan əsgərinin əhval-ruhiyyəsinin ən yüksək səviyyədə olmasının göstəricisidir. Son iki həftə ərzində döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə və ləyaqətlə yerinə yetirir.

Ali Baş Komandan, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Mərkəzi Hərbi Klinik Hospitalda müalicə olunan yaralı hərbçilərlə görüşməsi, onlar qarşısında çıxış etmələri hərbçilərimizə diqqət və qayğının ən bariz nümunəsidir: “Bu gün bütün yaralı hərbçilərimiz və şəhidlərin ailələri dövlətin diqqət və qayğısı ilə tam təmin olunublar. Yaralıların müalicəsi dövlət tərəfindən ən yüksək səviyyədə aparılır. Bütün şəhid ailələri dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilir. Təkcə bu il 1500 şəhid ailəsi dövlət tərəfindən mənzillərlə təmin ediləcək. Yaxın 2-3 il ərzində birinci Qarabağ müharibəsində həlak olmuş şəhidlərin ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaq”.

Son günlər düşmən ordusu özünü tamamilə itirdi, nə etdiyini bilmədi. Bir-birinin ardınca aldığı sarsıdıcı zərbələr onları pərən-pərən saldı. Döyüş meydanını qorxub tərk etdilər, texnikanı, silah-sursatı qoyub qaçdılar. Müharibəyə getməkdən boyun qaçırdılar. Görün Paşinyan nə günə qalıb ki, bu il əskərlikdən tərxis olunmuş gəncləri yenidən orduya çağırır və deyir ki, özünüzlə hərbi geyiminizi də gətirin. Çünki adi geyim belə çatışmır, o ki qala, müasir silah, ərzaq ola.

Bəs belə biabırçı vəziyyətdə Ermənistan rəhbərliyi nə etdi? Öz ənənəvi peşəsinə-terrora əl atdı, cəbhədən on, yüz kilometrlərlə aralıda yerləşən şəhər və kəndlərimizi raket, artilleriya atəşinə tutdu, əhali arasında panika yaratmaq istədi. Məqsədi də başqa ölkələri bu müharibəyə cəlb etmək, vəziyyətdən birtəhər can qurtarmaqdır. Onlar mülki şəxsləri atəşə tutur ki, döyüşən ordunun arxasındakı xalq qaçsın. Amma bu gün bizim xalqımız, ölkəmiz, dövlətimiz, Prezidentimiz və ordumuz birləşib. Yəni Ermənistanın bu cəhdi də baş tutmur.

Oktyabrın 4-ü, 5-i və 8-də Azərbaycanın ikinci böyük şəhərini-Gəncəni raket atəşinə tutarkən, hətta müqəddəs ziyarətgahımızı-İmamzadəni dağıtmağa cəhd göstərərkən mən gənclərin bir daha fədakarlıq, mərdlik, cəsarət, xeyirxahlıq keyfiyyətlərinin şahidi oldum. Adamlar bu xain hücumlardan nəinki qorxub qaçdılar, əksinə az qala, bütün şəhər camaatı evləri dağıdılmış sakinlərin yanına gəldi, tozun-dumanın içində yaralılara kömək etməyə başladı. Ermənistanın bu pis niyyəti baş tutmadı. Azərbaycan xalqının mətinliyi, mütəşəkkiliyi, öz Prezidenti ətrafında sıx birliyi onların naqis və xain arzularını gerçəkləşdirmədi. İndinin özündə qədim Nizami yurdu adi günlərini yaşayır. Mağazalar, ictimai iaşə obyektləri, nəqliyyat işləyir.

Amma Ermənistanın fəlakətli günləri hələ qarşıdadır. Dağlıq Qarabağı tərk edib qaçan, işğal altındakı əraziləri boşaldan erməni ailələrinin hamısı Ermənistana üz tutur. Şuşada, Xankəndidə erməni qalmayıb, əhalinin 70 faizi oraları tərk edib. Əslində, bu da Ermənistanın dövlətinə əlavə yükdür. Həmin ailələr yerləşdirilməli, yemək, pul verilməli, kommunal xərcləri ödənilməli, digər işlər görülməlidir. Öz əsgərinə “köhnə paltarını əyninə geyin gəl” deyən bir dövlət bunları edə biləcəkmi?Təbii ki, yox. Ona görə Ermənistanı aclıq, səfalət, xaos alt-üst edəcək. Bu artıq indidən görünür. Azərbaycan Silahlı Qüvvələrinin gücü Ermənistan ordusunun gücündən müqayisə edilməyəcək qədər çoxdur. Bizim çağırışçılar hərbi xidmətə yollanarkən hərbi dərslər keçir, təlimlərə cəlb edilir, hərbi sursatla bağlı tam biliklər əldə edirlər. Amma Ermənistanda çağırışçılar bu təlimləri keçmirlər. Hətta bu gün Ermənistan ordusuna çağırılanların əksəriyyətinin ordu anlayışı yoxdur. Orduda xidmət etməyən şəxslər birbaşa döyüşə göndərilir. Ona görə də onlar Azərbaycan Ordusunun qarşısında tab gətirə bilmirlər.

Özünün 100 yaşına çatan Azərbaycan Dövlət Aqrar Universitetinin çoxminli müəllim-tələbə kollektivi bu günlər Ordumuzun hər qələbəsini böyük coşqu, iftixar hissi ilə qarşılayır. Hər kəs Ordumuza, cənab Prezidentimizə dəstək nümayiş etdirir. Yeri gəlmişkən qeyd edim ki, Orduya Yardım Fonduna ilk ianə köçürən təşkilatlardan biri də bizim universitetdir. Artıq həmin fonda 40 min manat pul köçürmüşük. Əlbəttə, qüdrətli dövlətimiz, Prezidentimiz orduya nə lazımdır edib və edir. Sadəcə bu, təkcə maddi dəstək deyil, həm də mənəvi dəstəkdir.

...Cəbhədən gələn xoş müjdəli hər xəbəri həsrətlə gözləyirik. Möhtərəm cənab Prezidentimizin bütün çıxışlarını nəinki izləyirəm, onun hər cümləsini dönə-dönə oxuyuram. Çünki bunları dinlədikcə qəlbim dağa dönür və fəxr edirəm ki, belə bir müdrik, uzaqgörən, cəsarətli, prinsipial, bütün dünyada ən böyük dövlətlərin belə hesablaşdığı prezidentim var!

Axı necə sevinməyim, necə fəxr etməyim! Dövlət başçımın oktyabrın 4-də xalqa müraciətində dediyi bu sözlərə bir diqqət yetirin: “Mənim şərtim birdir – çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz, əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam”.

Qardaş Türkiyənin, bizi sevən, haqq işimizi dəstəkləyən bir sıra digər dövlətlərin mənəvi dəstəyi də qələbəmizin lap yaxında olduğundan xəbər verir. Paşinyan isə zəng etmədiyi, yalvarmadığı dövlət başçısı qalmayıb. İndi sülh istəyir, güzəştlərə gedəcəyini bəyan edir…Lazım deyil! Sənə artıq heç kim inanmır. Biz öz torpaqlarımızı özümüz sənin murdar əllərindən alacağıq. Yenə də cənab Prezidentimin məni həddsiz məmnun edən aşağıdakı sözlərini yada salıram: “Onların səngərlərində Azərbaycan əsgəri dayanır. Onların postları bizim əlimizdədir. Onların tanklarını biz sürürük. Onların digər silahlı texnikası, yük maşınları bizim əlimizdədir. Biz xilaskar missiyamızı icra edirik və edəcəyik. Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki gec deyil. Bizə 7 şərt irəli sürür. Sən kimsən ki bizə şərt qoyursan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çöküb yalvarırsan ki, atəşkəs bərpa olunsun”.

Yeri gəlmişkən qeyd edim ki, Paşinyanın yalvarışlarından sonra dünən gecə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada 11 saatdan çox keçən görüşündən sonra atəşkəs qəbul olunması xəbəri xalqımız tərəfindən heç də birmənalı qarşılanmadı. Açıq deyim, sıravi Azərbaycan vətəndaşı kimi, mən də, xalqımız da istəmir ki, atəşkəs olsun və Ermənistan yenə bizi aldatmaqda davam etsin. Amma biləndə ki, bu, hərbi-siyasi atəşkəs deyil, sadəcə Qırmızı Xaç Cəmiyyətinin nəzarəti ilə Ermənistan döyüşçülərinin meydanda qoyub qaçdıqları əsgərlərin meyitlərinin daşınması üçün edilib və daha sonra hansı qətnamə qəbul ediləcəksə yalnız bizim diktəmizlə olacaq, o zaman adamların çiynindən sanki ağır bir yük götürüldü. Yəni cənab Prezidentimiz deyib ki, bir necə desək, elə olacaq. Başqa heç bir şərt qəbul etməyəcəyik.

Qələbəmizə, doğma torpaqlarımızın işğaldan tamamilə azad olunacağı günə, Azərbaycan bayrağının Xankəndində, Şuşada və digər yerlərdə dalğalalanacağı ana az qalır, lap az. Biz bunu – böyük təntənə ilə qeyd edəcəyimiz günü səbirsizliklə gözləyirik. Biz cənab Prezidentimizin yaxasında Azərbaycanın Milli Qəhrəmanı nişanını görmək arzusu ilə yaşayırıq. xalq o anı gözləyir!

***İbrahim CƏFƏROV,***
***Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor***